2020.- 10 oktyabr.- S.24.

iki sahil

# Dövlətə, dövlətçiliyə xidmət həyatının əsas amalıdır

## 70 illik yol YAP Siyasi Şurasının üzvü Mirkazım Kazımovun portretini belə təqdim edir

**Hər kəsə bəxş olunan ömür payı illərin toplusundan ibarət olmaqla yanaşı, onların izlərini də özündə ehtiva edir. Ona görə hər zaman vurğulanır ki, həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil, onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır. Arxada qalan illərə baxış keçirdikdə daxilimizdə bizi izləyən, yol-yoldaşı olan "mən"imiz qarşısında qürurla, alnıaçıq, üzüağ dayana bilib, ötən illərin işığı altında sabaha doğru addımlamaq istəyiriksə, demək ki, illərə vurulan izlər qürurvericidir, nümunədir.**

Bu gün haqqında bəhs etdiyimiz, 7-ci onilliyinin zirvəsindən geri baxdıqda yaşadıqlarından heyfslənməyən, daha da qürurlanan Mirkazım Kazımovun həyat tarixini səhifələməyi özümüzə borc bilirik.

Mirkazım müəllim 1950-ci il oktyabrın 10-da Azərbaycanın gözəl guşələrindən olan Cəlilabadın Hasıllı kəndində müqəddəs Mirməhəmməd ağa ocağında dünyaya göz açıb. Bu ocağı tanıyanlar belə təqdim edirlər ki, Mirməhəmməd ağa Cənub bölgəsində böyük nüfuza sahib dindar, inanclı insan olmaqla yanaşı, xeyirxah, ümidsizlərin ümid yeri olan bir ünvan olub. Çünki çətinə düşən hər kəs Tanrıya pənah aparar, inanc yerlərinə üz tutar, seyid ocaqlarına sığınar, orada bir ümid işığına bel bağlayar. Mirməhəmməd ağanın ocağı da ona üz tutanlar üçün böyük təsəlli, ümid yeri olub. Belə bir ailədə böyüyən, kiçik yaşlarından qapılarının hər gün onlarla insanın üzünə xeyirliyə açıldığının şahidinə çevrilən Mirkazım müəllim üçün həmin günlər bir həyat məktəbi kimi xarakterizə olunur. M.Kazımov 70 illik həyatını məhz bu prinsiplər üzərində qurub ki, xeyirxahlıq, mərhəmət, imkansıza əl tutmaq, ümid yeri bilib üz tutanlara imkan daxilində dəstək olmaq insanı tutduğu vəzifəsindən, yaşından asılı olmayaraq daha da kamilləşdirir, həyata düzgün baxış formalaşdırır. Allah-Təalanın bizə bəxş etdiyi ömür məhz ötən illərin vurduğu möhürə görə dəyərləndirilir. Bu ümumiləşdirməni apara bilərik ki, 70 illik yol qət edən, hələ bundan sonra da Allah-Təalanın köməkliyi ilə daha 70 ili də



arxada qoymağı arzuladığımız Mirkazım Kazımovun portretini bir söz birləşməsi ilə ifadə etmək olar: -Xeyirxah insan.

Mirkazım müəllimin əmək fəaliyyətinə diqqət yetirdikdə də seçdiyi sahəyə bağlılıq özünü qabarıq şəkildə büruzə verir. O, balıqçılıq ixtisas üzrə təhsil alaraq təkcə Azərbaycanda deyil, həmçinin keçmiş İttifaqın müxtəlif respublikalarında balıqçılıq təsərrüfatında çalışıb. Mirkazım müəllim daha sonra təhsilini Moskva Yeyinti Sənayesi İnstitutunda davam etdirib və ali məktəbi müvəffəqiyyətlə başa vurub. Bir müddət Baltik dənizində xidmət edən Mirkazım müəllim sonradan Azərbaycana qayıdır. Respublikaya qayıtdıqdan sonra Mirkazım Kazımov ölkənin su bioresurslarının mühafizəsi sahəsində çalışıb və həmin sahənin strukturlarından birinə rəhbərlik edib. O, çalışdığı bu sahənin inkişafında xüsusi xidmətlər göstərmiş, balıqçılıq sektorunda çalışan mütəxəssislərin və ekoloqların dərin hörmətini qazanıb.

M.Kazımov, eyni zamanda, ölkənin ictimai-siyasi həyatında fəallığı ilə diqqət çəkir. O, 1992-ci ildə ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, son 17 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyasının sıralarına qoşularaq təşkilatın formalaşmasında fəal iştirak edib. 1999-cu ildə YAP Siyasi Şurasının üzvü seçilib. Mirkazım Kazımov ikinci, üçüncü, dördüncü və beşinci çağırış Milli Məclisə deputat seçilib. Qanunvericilik sahəsində xidmətləri də təqdirəlayiq olub. Belə ki, Milli Məclisin deputatı olduğu bu müddətdə cəmiyyətin idarə olunmasında əsas rol oynayan, müxtəlif sahələri əhatə edən qanun layihələrinin hazırlanmasında və qəbulunda fəal iştirak edib. Mirkazım müəllim seçici rəğbətini qazanan, onların qayğıları ilə yaşayıb problemlərinin həlli istiqamətində lazımı tədbirlərin görülməsində fəallıq nümayiş etdirən millət vəkilləri sırasında olub. Onun dəfələrlə seçicilərin dəstəyini qazanaraq Milli Məclisə deputat seçilməsi də deyilənlərin təsdiqidir.

M.Kazımov, eyni zamanda, 1996-cı ildən "Qasid" Mətbuat Yayımı Səhmdar Cəmiyyətinin sədri vəzifəsində bu böyük kollektivə uğurla rəhbərlik edir.

Qeyd etdiklərimiz protokol qaydalarına uyğun olaraq Mirkazım müəllimin qısa təqdimatıdır. Əvvəldə də vurğuladığımız kimi, əsas olan malik olduğu insani keyfiyyətlərin tutduğu hər bir vəzifənin öhdəsindən layiqincə gəlməsinə stimul verməsidir. "Dövlətçiliyi qorumaq, dövlət maraqlarını hər şeydən üstün tutmaq hər kəsin vətəndaşlıq borcudur." Bu deviz onun fəaliyyətinin əsasını təşkil edir.

Mirkazım müəllim Azərbaycanın daha da güclənməsi, qüdrətlənməsi üçün əlindən gələni əsirgəmir, daim ölkəmizi irəli aparan ulu öndər Heydər Əliyev siyasətini dəstəkləyir, bu siyasətin ölkəmizə qazandırdığı uğurların təbliğində fəal iştirak edir. Bu gün hər bir Azərbaycan vətəndaşı kimi, Mirkazım müəllimin də yeganə arzusu işğal altında olan torpaqlarımızın tamamilə işğaldan azad olunması, üçrəngli bayrağımızın Şuşada, Xankəndidə dalğalanmasıdır. O gün hər an, hər saniyə yaxınlaşır. Azərbaycan Ordusunun sentyabrın 27-dən bu günədək davam edən qətiyyətli əks-hücum əməliyyatlarından böyük sevinc hissi keçirən Mirkazım müəllim Azərbaycan həqiqətlərinin, Dağlıq Qarabağ probleminin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də ciddi səylər göstərir. Möhtərəm Prezidentimiz, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşərək, erməni yalanlarına cavab olaraq "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" reallığını dünyaya çatdırır. Güclü, qüdrətli Azərbaycan harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıların qürur mənbəyinə çevrilib.

***70 ilin izlərindən məmnunluqla bəhs edən yubilyarı bir daha təbrik edir, cansağlığı, uzun ömür, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi istiqamətində töhfələrinin davamlı olmasını arzulayırıq.***

**Yeganə Əliyeva,**
***"İki sahil"***

## FHN: ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN ATDIĞI MƏRMİLƏR AZƏRBAYCANDAKI MÜLKİ OBYEKTLƏRDƏ YANĞINLARA SƏBƏB OLUB



Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) "İki sahil"ə bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər Ağdam rayonunda vətəndaşlara məxsus 3 fərdi evdə və təsərrüfat obyektində yanğına səbəb olub. FHN-in hadisələrin baş verdiyi ərazilərə cəlb olunan Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən yanğınların qarşısı alınaraq yaxınlıqdakı tikililərə keçməsinin qarşısı alınıb.

Tərtər rayonuna mərmi düşməsi nəticəsində vətəndaşa məxsus təsərrüfat obyektində yanğın baş verməsi barədə FHN-ə məlumat daxil olub. Düşmən tərəfindən ərazi intensiv atəş altında saxlanıldığından yanğına müdaxilə edilməsi mümkün olmayıb.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.